

# Atalı günlərin həsrəti

Xalq şairi Hüseyn Arif...
Sevilə-sevilə mütaliə olunan,
haqqında maraqlı söhbətlər dolaşan,
lətifələr danışılan gözəl sənətkarımız!

*Maraqlıdır ki, bəziləri bu ehtiramın səbəbini tək elə şairin parlaq istedadında, təbiətə vurğunluğunda, ana dilimizin incəliklərindən, söz çalarlarından məharətlə istifadəsində axtarırlarsa, onunla eyni kollektivdə çalışanlar, birgə səfərlərdə olub, dostluq edənlər bunu Hüseyn Arifin mehribanlığı, səmimiliyi, xoş ünsiyyəti, sadəliyi, təvazökarlığı və bu insani keyfiyyətləri əlaqələndirirlər*

Bu baxımdan, Xalq yazıçısı İsmayıl Şıxlı:

*"Hüseyn Arifin şeirlərində sözlərin sıralanması, təbii axan kəlmələrin tərkibindəki səslərin belə cərgələnməsi o qədər sadə, ürəyəyatımlıdır ki, şeir oxuduğunu unudursan. Sənə elə gəlir ki, kiminləsə, sadəcə, söhbət edirsən. Lakin bu söhbətin elə gözəl, elə incə və elə zəngin poetik düşüncə tərzi, elə obrazlı təfəkkürü var ki, buna heyran qalmaya bilmirsən. Xalq poeziyası Hüseyn yaradıcılığının iliyinə, qanına hopmuşdur..."*

Bu kimi saysız rəylərdə, mülahizələrdə diqqətçəkən məqamlar yetərincədir. Bununla belə, düşünürük ki, bu məlumatların əksəriyyətini zaman-zaman radio və televiziyadan, qəzet və jurnallardan aldığımızdan böyük şairlə bağlı ən duyğulu hekayətləri, həzin xatirələri övladlarından eşitməyimiz daha maraqlı olardı; insana ailəsi qədər yaxın, bütün incəlikləri ilə bələd olan başqa birisini təsəvvür etmək mümkündürmü?!

**Zöhrə Hüseynzadə:**

"Xəyal məni o unudulmaz illərə – xoşbəxt atalı çağlarıma aparır. Ağstafadakı evimizdə idik. Səhər yuxudan duranda gördüm yağış yağıb. Qağam (atamıza biz belə müraciət edirdik) bellə çınqılları evin divarına tərəf yığırdı. Məni görüb yanına çağırdı, nə üçün belə etdiyinin səbəbini soruşdu. Cavab verdim. Qayğılı simasına təbəssüm qondu: "Düz deyirsən, evin xımına su düşməsin deyə belə edirəm. Gün gələcək, haqqımda yazacağın xatirələrə bunu da salacaqsan...



Hüseyn Arif ailəsi ilə





Ağstafa dəryaçəsının açılışında

İndi bunları xatırlayarkən qəhər məni boğur. O zaman fərqinə varmamış, ağlıma da gətirməmişdim ki, vaxt gələcək Hüseyn Arif də həyatda olmayacaq və mən atamla bağlı xatirələrimi kiminləsə bölüşəcəyəm...

İllər keçdikcə Hüseyn Arif poeziyası, onun xüsusiyyətləri, fərqləndirici cəhətləri, müasir və ümumən poeziyamızdakı yeri məni ilk oxucusu və bir övladı kimi daha çox düşündürür. Qəti əminəm ki, qağamın ömrünü, taleyini öyrənmək istəyən hər kəs onun şeirlərini oxuyub, xronoloji ardıcıllıqla düzsə, ilin, ayın, hətta günün tarixini dəqiqliklə tapa bilər.

Hüseyn Arif poeziyası əslində, öz həyatının, hiss və həyəcanlarının əksidir. Onun sevincli anlarında yazdığı şeirlər sevinc saçır, kədərli məqamlarındakılar isə qəm, qüssə, ələm...

Keşməkeşli həyatının çətinliklərinə, cəmiyyətin vurduğu mənəvi yaralara tab gətirən Hüseyn Arif onları şeirə çevirərək mənən rahatlıq tapırdı. Lakin torpaqlarımızın əldən getməsinə dözə bilmədi, hələ 1986-cı ildə – Göyçəlilərin dədə-baba yurdlarımızdan köçməyə başladıqları zaman ürək ağrısı ilə "Göyçəlilər, dağılmayın Göyçədən" deyə haray salsa da, doxsanıncı illərdə rayonlarımızın amansızlıqla boşaldılmasının səbəbini nə başa düşə, nə də dilə gətirə bildirdi. Bircə bunu dedi ki:

***Hüseyn, səni də dəyişər zaman,***
***Yalvarma loğmana - üzüləndə can.***
***Doyub-doymasa da gözün dünyadan,***
***Vaxt tamam olanda köçəsən gərək.***

Beləcə, vaxtın bitdiyini hiss edərək səssiz-səmirsiz oğlu Arifin uyuduğu doğma Ağstafaya üz tutdu və ömrünün son aylarını orada yaşadı...

Hüseyn Arif şeirinin ən səciyyəvi cəhəti, fərqləndirici xüsusiyyəti, sevilməsinin başlıca səbəbi ondadır ki, şair adi güldən, daşdan, çeşmədən, bulaqdan, dağdan, günəşdən, torpaqdan danışa-danışa oxucunu həyatın əzəli-əbədi fəlsəfəsinə, həyatın əsas mənasına gətirib çıxarır. Bu baxımdan, təbiətdən qaynaqlanan, təbiətlə təbiiləşən, ülviləşən, təbiətdən yazdıqca onun bir parçasına çevrilən şairin poeziyasını heç bir şairin yaradıcılığı ilə müqayisə etmək olmur. Bu poeziyanı təbiiliyinə, təkrarsızlığına görə yalnız təbiətin özü ilə müqayisə etmək mümkündür.

Bəlkə elə ona görəymiş ki, qağam heç vaxt həkimə getmədi. Xəstələnəndə yatağa girər, banka qoydurar, çox sevdiyi əvəlikli isti bişirtdirər, sağalardı. O, təbiətə bir loğman kimi baxar, buz bulaqların, səfalı yaylaqların, müxtəlif bitki və ağacların insan sağlamlığına təsirini təsvir edərdi:

***Torpaqdan gül, çiçək ətri gələndə,***
***Təbiət fikrimdə loğmana dönür.***
***Ürək yorulanda, can ağrıyanda,***
***Sərinlik ən gözəl dərmana dönür...***

Hüseyn Arif elə xoşbəxt şairlərdəndir ki, yaşadığı əsri adlayıb iyirmi birinci yüzilliyə keçdi. Bu xoşbəxtliyin məziyyətləri çoxdur. Başlıcası da budur ki, o, dövrünün ağır yüklərini ürəyində daşıdı, taleyində yaşadı. Bir insanın hiss və həyəcanlarını bir elin, bir xalqın, bütövlükdə Türk-Turan dünyasının mənəvi sərvətinə çevirməyə çalışdı.

Onun təbiətə vurğunluğu göz açdığı doğma yurdun gözəlliklərindən, lilparlı, yarpızlı, durna gözlü bulaqlarından, qoyun-quzu qoxulu çöllərindən, əzəmətli dağlarından, şaqraq şəlalərindən irəli gəlirdi. Bu vurğunluğun təsiri şairin təbiətini də müəyyənləşdirirdi. Bulaq suyu qədər dumduru, dağ kəli kimi qürurlu, coşqun çaylar tək şaqraq, bülbül cəhcəhi tək şirin dilli..."

